

İlham İNAM

Hələ XX əsrin ortalarında dahi şairimiz Səməd Vurğun demişdir:

**“ Nemətsə də gözəl şeir,**
**Şair olan qəm də yeyir “.**

Bəli, qəm yeməkləri şairlərin, yaradıcı adamların gündəlik” menyu”sudur. Hər gün ağrılarla döyünən, kədərlə yüklənən ürək sanki hürkək qaranquş kimi ovcunun içində çırpınır. Elə döyünür, elə çırpınır elə bil dar bir qəfəsə salmısan.

man taleyinin çaşdığı yolda özü də çaş - baş qalıbdır . Ayrılıb görmək istəmədiyi “əziz” bir adam indi görüb ayrılmaq zorunda qaldığı bir əlçatmazlıqdadır . Təsadüfü qonşuluq hər gün onlar arasında qarşı - qarşıya gəlmək , qabaqlaşmaq zərurəti yaradıbdır.

Lirik qəhrəman bu labirintdən çıxış yolları axtarışındadır :

**Sevgisən , həsrətsən , gəlmirsən dilə,**
**Ürəkdən yüz hissin təlaşı keçir .**
**Hər səhər , hər axşam yanımdan belə ,**
**Sevgim həsrətimnən yanaşı keçir .**

Sevən insan üçün çox çətin bir durumdur. Vaxtıyla sevdiyin qızı yad ocağında görmək , hər onu görəndə onlu xatirələrin içində qovrulmaq çətin bir həyat imtahanıdır. Təbii ki , xatirə dolu təlaş , hər gün , hər onu gördükdə könül qapısını döyəcəkdir.

Sevgiylə həsrətin yanaşı addımlaması hicran dadmış ürək üçün heç də

# Ürəyim ovcumun içində hər gün

## (Vasif Süleyman yaradıcılığı barədə təəssüratlarım)



Müasir Azərbaycan ədəbiyyatının öndə olan ədəbi simalarından biri də Vasif Süleymandır.

Onun poetik yaradıcılığı sanki səsli - küylü dağ çayıdır. Dənizlərə çatmaq, ümmanlara qovuşmaq üçün gecə - gündüz yorulmadan yollar; dağlar, dərələr, düzənlər, səhralar qət etməkdədir.

Şairin bir neçə şeirini fikir süzgəcindən keçirərək söz haqqında söz , fikir haqqında fikir bildirmək fikrindəyəm .

Gəlin V. Süleymanın qonşuya , qonşuluğa münasibətinə poetik prizmadan baxaq .

Şairin “ Ayrılıb təzədən qonşu olmuşuq “ şeirindən məhəbbət ətri , həsrət qoxusu gəlir:

**İş elə gətirib od qonşusuyuq ,**
**Sənmi köçməlisən, mənmi, bilmirəm .**

Ailə quraraq bir ömür birləşə bilməyən sevdalıları Tanrı qonşu olaraq “birləş” diribdir. Təəssüf ki, heç biri yaşadığı mənzildən köçə bilmək bəhanəsi tapa bilmir.

Ürəyini ovcunun içinə alaraq xəyalını göylərin yeddi qatından keçirən aşiq maləsəf vaxtıyla sevdiyi , indi ona qonşu olan xanımın evinin qapısından içəri keçə bilmir. Bütün gün hər onu gördükcə təskinlik ünvanlı xatirələrinə üz tutur:

**İşə baxırsanmı, sənin yolların,**
**Mənim pəncərəmin önündən keçir.**

Sevən aşiq bir zamanlar ona “doğma” olan birisi ilə indi qonşuluqda yad bir insan kimi yaşayır. Tanrı qisməti belə yazıbdır. Hər gün işə onun pəncərəsinin önündən keçərək gedən xanım sanki hər gün onun ürəyini özü ilə işə aparıb gətirir.

**Səni qucağına açılan qollar ,**
**Məni üz qoyduğum balınc göynədir**

- söyləyən sevda adamı sevgisindən yarımayan, yaxın ola - ola uzaq olmağın acısını yaşamağı poetik ifadələrlə müqayisə edir.

**Ləngiyən vüsala tuşmu olmuşuq ,**
**Yoxsa bu , taleyin çaşdığı yoldu .**
**Ayrılıb təzədən qonşu olmuşuq ,**
**Ta bunun harası ayrılıq oldu...**

Qənaətində yanılmayan lirik qəhrəyaxşı sürpriz deyildir .

“25 yaşın şeiri və şəkli” nə üz tuturam. Bu yaş təbii ki cavanlıq səhvlərinin , günahlarının, xətalarının edildiyi bir zaman kəsiyidir. Ədəbi qəhrəman bu şeirdə cavanlıqda etdiyi “ sevgi xəta”larına poetik münasibətini ortaya qoyur :

Bir şirin xətanın əsiri idik,
O da çatlayırdı şirinliyindən.

Adətən, xəta, günah mənfi stimul yaradan məfhumlardır. Maraqlısı odur ki, şair xətanı şirinliyindən çatlayan nara , meyvəyə bənzədərək poetik tapıntı etmişdir. Bir nüansı da vurğulayım ki, bu xəta xətasız xətadır. Heç kum bundan ziyan görmür:

Adı xataların yoldaşı oldu,
Heç kim bu xatadan ziyan görmədi.

Şair ürəyinin böyüklüyü həm də ondadır ki ;

**Çünki aramızda şirin sevgini ,**
**Şipşirin xətaya bağışlamışıq .** - deyə bilir . O , sevgisini şipşirin xətaya bağışlamaq , hədiyyə etmək qüdrətindədir .

V. Süleymanın məhəbbət mövzulu şeirləri sanki hazır , bəstələnmiş mahnı versiyalarıdır .Onun “ Yazmışam “ şeiri də bu qəbildən ürəyəyatımlıdır . “Yazmışam” eyni zamanda poetik sevgi etirafları ilə zəngin bir şeirdir .

Sevdiyu qızdan onu yüz yol sınamamasını istəyən aşiq anlatmaq istəyir ki , sənin bu sevginlə yeni bir ömür başlayaraq dinə , imana gəlmişəm . O , tale yollarına çıxan sevgisini qismətə yazılan gün kimi şükranlıqla qəbul edir .

**Bu eşqin vüsalı olamı , bilməm ,**
**Yolsuzmu çıxmışıq yolamı , bilməm .**
**Sən nəsən , sevgimi , bəlamı , bilməm,**
**Yazmıram demişəm , yenə yazmışam** - deyən eşq əhli eşqi vüsalsız təsəvvür etmir. Vüsal eşqin bir növ zirvəsidir . Yola yolsuzluqdan , sevgiyə sevgisizlikdən , heç nəyə hər şeydən başlamaq insan taleyinin təzahürüdür . Sevdiyi gözəlin sevgi yoxsa bəla olması dilemması ilə qarşılaşan lieik qəhrəman yazmıram desə də həmin gözəlin məhəbbətini yenə qəlbinə yazmaqla sevgi uğrunda fədəkarlığın son akkordlarını nikbinliklə vurur .

Şeir gözəl bir sevgi etirafı ilə yekunlaşır . Şeirin bu son bəndinə böyük bir məna yükünü sığışdırmağı bacaran qələm adamı:

**Bütün ömür boyu yazdıqlarımı ,**
**Elə bilirəm ki , sənə yazmışam** - deməklə bir ömür sevguyı , sevgilisinə sədaqətini , məhəbbətini ifadə edir .

Vasif Süleyman yaradıcılığında poetik tapıntılar , oxucunu düşünməyə vadar edən fikirlər çoxdur.

Şairin şeirləri haqqında qalın bir kitab yazmaq olar.Hələlik məndən bu qədər .

V. Süleymana həyatda ən gözəl nemət olan can sağlığı , ailə səadəti və yazıb - yaratmaq eşqi arzulayıram.

Şəmkir rayonu